# SƏRGİMİZİN QÜRURLU POLADI



**Şəddat CƏFƏROV**

***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Bu günlərdə başa çatmış 7-ci Bakı Beynəlxalq kitab sərgisi unudulmaz təəssüratları ilə uzun müddət yadımdan çıxmayacaq. Çoxdan idi ki, Bakı belə kitab bumu görmürdü. Az qala iki ildir davam edən pandemiya vahiməsi insanları kütləvi tədbirlərdən təcrid etmişdi.

Biz çoxdan kitaba qayıtmağın aclığını çəkirdik. Bu mənada həmin tədbiri həm də bir mənəviyyat bayramı kimi yadda saxlamalı, ən yaxşı cəhətlərini gələcəkdə də olacaq tədbirlərimizdə əsas tutmalıyıq.

Böyük kitab bayramının təntənəsi olan sərgidə 3 saylı Bakı mətbəəsinin nəşr etdiyi kitablara da yer ayrılmışdı.

Biz də kollektivimizin nəşr etdiyi dəyərli kitablarla təmsil olunurduq. Apardığımız çoxlu nümunələr gələnlərin marağına səbəb olur, oxucular bəzi müəlliflər haqqında məlumat almağa çalışırdılar. Hətta kitabların məzmunu haqqında da sorğulara cavab verməkdən məmnunluq duyurduq.

Sərgiyə apardığımız çox dəyərli kitablar sırasında biri ilə bağlı xüsusilə təəssüratım var. Bu, yazıçı-publisist Bibixanım İsayevanın nəfis şəkildə çap olunmuş "İnsanlığın zirvəsi" sənədli əsəridir. Bəri başdan onu da deyim ki, bu kitabın poliqrafik baxımdan qüsursuz nəşri üçün kollektivimiz bütün imkanlarından istifadə etmişdi. Nəticədə general Polad Həşimovun möhtəşəm obrazını üz qabığında təqdim edən dəyərli bir kitab ərsəyə gəlmişdi. Qabaqcadan onu da qeyd etməliyəm ki, İsayeva Bibixanım Ağarza qızı 1959-cu il sentyabr ayının 10-da Qəbələ rayonu Vəndam qəsəbəsində ziyalı ailəsində anadan olmuşdur. Vəndam qəsəbə 1 saylı orta məktəbini bitirmiş, 1980-1986-cı illərdə BDU-nun jurnalistika fakültəsində təhsil almışdır. "Qəbələ" qəzeti redaksiyasında məsul katib vəzifəsində işləyir. Müxtəlif mətbu orqanlarda hərbi-vətənpərvərlik və milli-mənəvi dəyərlər mövzusunda müntəzəm çıxışlar edir. Həmyerlisi - Azərbaycanın Milli Qəhrəmanı, general Polad İsrayıl oğlu Həşimov haqqında yazdığı "İnsanlıq zirvəsi" onun ilk kitabıdır. Bu məlumatlar kitabın üz qabığının sonunda, müəllifin şəkli ilə birgə verilib. Onu da qeyd edim ki, müəllif kitabı yazıb ərsəyə gətirmək üçün elə Polad Həşimovun adına layiq fədakarlıq göstərib.

Bakı Beynəlxalq kitab sərgisi sözün həqiqi mənasında yaşanmış izdihamı ilə yadda qalacaq. Bu cəhətdən bizim köşkə də çoxlu insanlar yaxınlaşırdı. Polad Həşimov haqqında olan kitab elə kənardan yaxınlaşanların diqqətini cəlb edirdi. Kitabı götürür, vərəqləyir, almaq istəyirdilər. Ancaq verə bilmirdim. Çünki bu iki nüsxə kitabı mən qətiyyən ümumi diqqətdən kənara çıxarmaq istəməzdim.

Onu da deyim ki, elə Beynəlxalq kitab sərgisinin davam etdiyi müddətdə Bibixanım İsayevanın Polad Həşimov haqqında olan "İnsanlığın zirvəsi" kitabı "Azərkitab" ticarət mərkəzində də geniş ictimaiyyətə təqdim olunmuşdu. Polad Həşimovun anası da burada idi. Onun qürurlu çıxışı uzun müddət yadımdan çıxmayacaq. Polad Həşimovun anası ilə bu mənim ikinci görüşüm idi. Hələ müharibə dövründə, 44 günlük savaşın ən dəhşətli çağlarında bizi televiziyaya dəvət etmişdilər döyüşən gənclərimizə ürək sözlərimizi demək üçün. Polad Həşimovun anası ilə mən həmin televiziya çəkilişində ilk dəfə görüşmüşdüm. Çox nurlu, oğlunun və bütün şəhidlərin xatirəsini əziz tutan bir ağbirçək kimi yadımda qalmışdı. Mən bu barədə elə televiziyadakı görüşümüzdən də ona danışdım. Hər şeyi xatırladı. Hətta bizim birlikdə çəkdirdiyimiz şəklin kitabda da yer almasını dedim və göstərdim.

Qayıdıram yenə sərgiyə; burada maraqlı bir hadisə baş verdi. Bir hərbçi bizə yaxınlaşdı. Polad Həşimov haqqında kitabı əlinə götürüb bayraq kimi yuxarı qaldırdı, dedi ki, bu bayraq həmişə bizi qələbələrə səsləyəcək. Bəli, həmin hərbçi qəhrəman Polad Həşimovu elə bayraq obrazında görürdü. Sonra təkidlə kitabı istədi, mən verə bilməyəciyimizi dedim. Axı qeyd etdim ki, cəmi iki nüsxədir. Həmin hərbçi bir qədər də kövrəlmiş halda bildirdi ki, o, Polad Həşimovla döyüş yoldaşı olub, birlikdə xidmət edib. Əlbəttə, mən həmin hərbçinin hisslərini başa düşürdüm. Buna görə də həmin kitabı ona hədiyyə etdim.

Yaxşı başa düşürəm ki, Polad Həşimov kimi qəhrəmanlar, onun dostu və yaxın silahdaşı İlqar Mirzeyev kimi igidlər haqqında hələ çox yazılacaq.







Onların bir çox keyfiyyətləri gələcək nəsillərin ruhuna hopmalı, yaddaşlarında əbədi yer tutmalıdır. Bibixanım İsayevanın "İnsanlığın zirvəsi" kitabının üz qabığında, Polad Həşimovun portretinin altında qəhrəmanın özünün imzası da var. Öz xətti ilə adı, soyadı da yazılıb. Bu da təkcə poliqrafiya işi deyil, həm də mənəvi cəhətdən yüksək təəssürat yaradan epizoddur.

Kitabın əvvəlində maraqlı annotasiya verilib: "Kitab Azərbaycanın Milli Qəhrəmanı, general Polad İsrayıl oğlu Həşimovun həyatı, hərbi fəaliyyətinə həsr olunmuşdur. Hərbi-vətənpərvərlik, milli-mənəvi dəyərlərimiz mövzusunu tam mənada əhatə edən bu kitabda müəllif səngər generalı olan Polad Həşimovun uşaqlıq, gənclik, tələbəlik və hərbi fəaliyyətini portret cizgilərlə, bədii dillə ifadə etmişdir. Əsərdə həmçinin Polad Həşimovun silahdaşlarının, müəllimlərinin xoş xatirələri, qəhrəmanlarımızla bağlı ümumxalq sevgisi, həyata keçirilməsi vacib olan arzuların reallaşması, insanların yaddaşında onları narahat edən "kaş ki...lər" publisist qələmiylə qeyd olunmuşdur. Kitab Milli Qəhrəman və general haqqında müəllifin birinci kitabıdır. Onu da qeyd edək ki, qəhrəmanımız haqqında müəllifin ikinci kitabı da nəzərdə tutulmuşdur". Bu məlumatlar kitab haqqında ilkin mənbədir. Əsas odur ki, bu mənbədən qaynaqlanan hisslərlə oxucu kitab boyu Polad Həşimovun həyatına səyahətə çıxsın, onu daha da yaxından tanısın.- Müəllif elə kitabın üçüncü səhifəsində Polad Həşimovun bədii obrazını canlandıran bir şeir təqdim edib. Hiss olunur ki, şeirin müəllifi Polad Həşimovun həqiqi Polad obrazına sevgili münasibətini ifadə etməyə çalışıb. Qoy bizim oxucularımız da həmin şeiri oxusun:

*İnsanlığın qarşısında vicdan timsalı,*
*Təlatümlü dünyamızda "İnsan" imzalı,*
*Qəhrəmanlıq zirvəsində Danko misalı,*
*Əqidəsi poladlaşan igid Poladım!*
*Görünməyən məqamları görə bilirdin,*
*Qəm üstünə sevincini hörə bilirdin,*
*Həm zəhmli, həm qayğıkeş Poladlığınla,*
*Əsgərlərə insanlığı bölə bilirdin!*

*Sən keçərdin dərələrin boğanağından,*
*Heç çaşmadan dolayların doğanağından,*
*Keçdin od-alovdan, zirvələr aşdın,*
*Qar-sazaqda Qarabağdan, Murov dağından!*

*Sən vətən düzündə çiçək bitirdin,*
*Kiminsə gözündə bitən olmadın,*
*Vətən göylərində duman itirdin,*
*Qatı dumanlarda itən olmadın!*

*İnsanlığa yazılıbdır əyilməzliyin,*
*Əqidəsi qayalara oxşardı, təndi,*
*İgidliyin, ölməzliyin, yenilməzliyin,*
*Sonu qələbədi, sonu vətəndi!*

Əlbəttə, kitabın məziyyətlərindən çox danışmaq olar, ancaq müəllifin özünün "ön söz"ündə Polad haqqında maraqlı publisistik düşüncələri mənim xüsusilə diqqətimi cəlb etdi. Doğrudur, kitab çox maraqlıdır, çünki bu kitabda müəllifin can yanğısı var, böyük istəyi var. Amma təəssüf ki, kitab hər kəsin əlinə çatmır. Ona görə də mən istərdim ki, müəllifin xüsusi məhəbbətlə qələmə aldığı düşüncələrindən bir parçanı da oxuculara təqdim edim: "Polad böyüdüyü mühitdə, ailədə, məktəbdə də polad əqidəli böyüdü. Körpəlikdən insani keyfiyyətləri özündə cəmləşdirərək, böyüdükcə formalaşdıraraq əsl babanın arzuladığı bir gənc kimi yetişdi. Oxuduğu orta məktəblərdə, Heydər Əliyev adına Ali Hərbi məktəbdə də insani keyfiyyətləri ilə seçilirdi. Onun pillə-pillə yüksəldiyi rütbələr, aldığı titullar onun xarakterinə xas bir sadəliklə, təvazökarlıqla qarşılandı. Sanki bütün bunlar olmalı idi öz sırasıyla. İnsan məfhumu onun üçün əsas meyar idi. Ən adi əsgəri də yüksək rütbəlilər kimi eyni qiymətdə idi onun üçün. Dediyi sözün arxasında, verdiyi vədin reallığında idi düşüncəsi. Atdığı addımın xalq üçün, ordunun möhkəmləndirilməsi üçün vacibliyi və əhəmiyyəti olduğunu həmişə diqqət mərkəzində saxlardı. Hərbi işin daha dərinliyini öyrənmək üçün həmişə öyrənərdi, mütaliə edərdi; gözəl rəsmləri onu tanıyanların nəzərində xoş xatirə kimi qalmışdı. Polad düşmən taktikasını əvvəlcədən öyrənər, gecə-gündüzlüyündən, hansı fəsildə olmasından, hansı çətinliklərlə qarşılaşmasından asılı olmayaraq həm əsgər kimi, həm kəşfiyyatçı, həm də yüksək rütbəli bir hərbçi kimi şəxsən özü öyrənərdi. Qarşısınaqoyduğu məqsədinə çatmayınca sakitləşə bilməzdi. Elə buna görə bir çox çətinliklərlə qarşılaşsa da, öz rütbəsinin itirilməsi naminə də dövlətinə, xalqına sadiq bir əsgər idi. Əsgər həyatı onun üçün önəmli idi. Onların məişət qayğılarını qarşılamaq üçün dövlətin nə edəcəyini gözləməzdi. Elə bu dövlətin qulluqçusuyuq deyə gah öz şəxsi avtomobilini satar, bankdan kredit pul götürməklə hərbi yaşayış məskənləri, qazanxanaların təmiri, səngərlərin qazılması üçün canfəşanlıqla çalışardı. Ən çətin və odlu nöqtələrə öndə özü gedərdi. O qədər böyük ürəyə sahib idi ki..! Özü ailəsi ilə başqalarının mənzilində kirayə qalsa da, ona verilən yaşayış evini şəhid ailəsinə təqdim etmişdi. Əsgərin ayaqqabısının köhnə olduğunu görərsə, öz general botinkasını, üşüyən əsgərə öz general formasını geyindirərdi. Yaşadıqları və işlədikləri bölgələrdə əhali ilə sıx əlaqədə olardı, onların daima keşiyində ayıq-sayıq olduğunu bildirərdi". Müəllif "ön söz"ünün sonunda çox nikbin, qürurlu duyğularla fikrini yekunlaşdırır. O bildirir ki, xalqımızın igid oğlu Polad Həşimov torpaqlarımızın işğaldan azad olunması üçün səngərdə idi. O, sözün həqiqi mənasında, səngər qəhrəmanı idi.

İndi mən də burada qeyd edirəm ki, Polad Həşimovların arzusu yerinə yetirildi. Qalib ordumuz 44 günlük müharibəni qələbə ilə başa çatdırdı. Keçilməz dağ massivlərində səngərlənərək düşmənə sarsıdıcı zərbələr endirdi. Murovun, Şuşanın, Ömər aşırımının düşməndən təmizlənməsi böyük tarixi hadisələrdir. Gələcək hərb tarixində bu döyüşlər xüsusilə maraqlı və çox dəyərli hərbi dərslər kimi öyrəniləcək.

Kitabda maraqlı bölmələr var. Yazıların məzmunundan xəbər verən başlıqlar var. "Adına sadiq qəhrəman", "İnsanın genetik kodu", "Tarix yazıb tarixlərdə yaşayan", "Ruhlar duyularsa"... kimi yazıların hər biri qəhrəmanın əfsanəvi varlığına aparan yolların bələdçisi ola bilər.

Mən belə kitabları dəyərli tarixi sənəd hesab edirəm. Ona görə də bəzi faktları da yazı ilə əbədiləşdirmək istərdim: müəllif göstərdiyi maddi dəstəyə görə Birinci Qarabağ müharibəsi veteranı, baş gizir Asəf Ağarza oğlu İsayevə minnətdarlığını bildirir. Əlbəttə, bu da təsadüfi deyil. Qəhrəmanın xatirəsini əbədiləşdirmək üçün hər kəsin fəaliyyəti çox dəyərlidir. Mətbəənin direktoru kimi bu kitabın ərsəyə gəlməsində əvvəldən-axıra qədər diqqətli olmağa çalışmışam, istəmişəm ki, işimiz qəhrəmanın adına layiq olsun. Texniki işçilərin kompüter yığıcısı, korrektor Afət İsrayılovanın, dizayner Mülayim Vəliyevanın göstərdikləri diqqəti unuda bilmərəm. Zənnimcə, bu kitabın hələ davamı da yazılacaq. Üstəlik, təkrar-təkrar nəşri də olacaq. Biz Polad Həşimovu hələ çox xatırlayacağıq. Gələcəyi quran gənclərimiz onun qəhrəmanlıq ərsləri ilə böyüyəcək.

*14.10.2021*